# AZƏRBAYCAN RESPUBLİKASI

# AUDİTORLAR PALATASI SƏDRİNİN

# Ə M R İ

**Bakı şəhəri** **№15** **29 aprel 2022-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, "Şəfəq Audit Konsaltinq" MMC-nin direktoru-auditor Ağayev Akif Ağa oğluna tənbeh tədbiri görülməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatasına Azərbaycan Respublikası Vəkillər Kollegiyası "Ədalət" Vəkil Bürosu tərəfindən daxil olmuş 2022-ci il 16 mart tarixli 903 saylı şikayət məktubuna və Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/4 nömrəli qərarı ilə II redaksiyada bəyənilmiş "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi"nə əsasən Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edimesi üzrə komitənin sədri V.Rəhimov və Auditin Hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi E.İbrahimov tərəfindən aparılmış araşdırmanın nəticəsi olaraq Bakı Şəhəri Nərimanov Rayon Məhkəməsinin 23.09.2021-ci il tarixli 2(005)-9/2021 saylı qərardadına əsasən, "Şəfəq Audit Konsalting" MMC-nin direktoru-auditor Ağayev Akif Ağa oğlu tərəfindən mühasibatlıq ekspertizasının aparılması barədə 2022-ci il 25 yanvar tarixli hesabat və rəy Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilmədən və kifayət qədər audit sübutu toplanmadan verildiyinə görə Ağayev Akif Ağa oğlu barəsində tənbeh tədbiri görülməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Bakı Şəhəri Nərimanov Rayon Məhkəməsinin 23.09.2021-ci il tarixli 2(005)-9/2021 saylı qərardadına əsasən, "Şəfəq Audit Konsalting" MMC-nin direktoru-auditor Ağayev Akif Ağa oğlu tərəfindən mühasibatlıq ekspertizasının aparılması barədə 2022-ci il 25 yanvar tarixli hesabat və rəy Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilmədən və kifayət qədər audit sübutu toplanmadan verildiyinə görə Ağayev Akif Ağa oğluna şəxsi işinə yazılmaqla son xəbərdarlıq edilsin və bir daha belə hallara yol verilməməsi ondan tələb edilsin.

2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu əmrin 1-ci bəndindən irəli gələn məsələləri həll etsin.

3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu əmrin mətninin "Şəfəq Audit Konsaltinq" MMC-nin direktoru-auditor Ağayev Akif Ağa oğluna çatdırılmasını təmin etsin.

4. Bu əmrin mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**